BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Sosial-siyasi elmlər seriyası 2007*

# SOSİAL SİYASƏTIN MAHİYYƏTİ, MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

**HADİ RƏCƏBLİ**
*Bakı Dövlət Universiteti*

*Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra ölkədə həyata keçirilən geniş dövlət quruculuğu sahəsində böyük uğurlar qazanılmış, sosial həyatın bütün sahələrində mühüm dəyişikliklər edilmişdir. Bu mütərəqqi proses durmadan davam etdirilməkdədir. Təəssüf ki, keçid dövrü şəraitində, yəni XX əsrin 90-cı illərindən başlayaraq bu günə kimi müstəqil Azərbaycan Respublikasının sosial siyasət sahəsində fəaliyyəti indiyə qədər xüsusi tədqiqat obyekti kimi öyrənilməyib. Bununla belə, qeyd etməliyik ki, bu problemin ayrı-ayrı aspektlərinə dair həm fəlsəfi-ekoloji, həm də iqtisadi ədəbiyyatlarda elmi-tədqiqat xarakterli bəzi yazılar, fikir və mülahizələr mövcuddur.*

Sosial siyasətin çoxtərəfli anlayış olduğunu nəzərə alaraq bildirməliyik ki, elmi ədəbiyyatda bu anlayışın müxtəlif tərəflərinin tədqiqinə geniş yer verilir. Sosial siyasətin mahiyyəti, prinsipləri, istiqamətləri, modelləri, sosial sahənin strukturu və funksiyaları və s. məsələlər tədqiqatçılar tərəfindən müəyyən qədər tədqiq edilmişdir. Xüsusilə SSRİ-nin dağılması ərəfəsində və müstəqil dövlətlər birliyi yarandıqdan sonra sosial siyasətin bu və ya digər problemləri ilə əlaqədar xeyli tədqiqat işi aparılmışdır. Belə ki, İ.A.Qriqoryeva (1), V.İ.Jukov (2), L.İ.Durova (3), İ.Q.Zaynışev (4), V.M.Kapitsin (5), İ.M.Lavrenenko (6), E.A.Meerson (7), V.Q.Popov, E.İ.Xolostova (8), S.S.Şatalin (9), Q.Şmidt (10) və başqa tədqiqatçılar əsasən Rusiya Federasiyası daxilində sosial siyasətin həyata keçirilməsi, onun üzərinə düşən vəzifələr, sosial sahə ilə bağlı mühüm problemlər ətrafında tədqiqat aparmışlar.

Sosial siyasətin cəmiyyətin həyatında mühüm əhəmiyyəti demək olar keçmiş müttəfiq respublikalarda bəzi tədqiqatçıların da diqqətindən yayınmamışdır. Qazaxıstan Respublikasında A.Koşanov, M.Meldixanova, S.Qayssna (11), Qırğızıstan Respublikasında D.Cailov, V.Kuznetsova, Q.Sariyeva (12), Tacikistan Respublikasında R.Raximov, N.Kayumov, O.Boboev, M.Nurmaxmadov, M.Kabutov, D.Kadırov, L.Deqtyar (13) sosial siyasətin həyata keçirilməsi, həmin ölkələrdə bu sahədə mövcud vəziyyəti qismən tədqiq etmişlər.

Sosial siyasətin nəzəri-metodoloji problemləri, iqtisadi və sosial-əmək əsasları, sosial sahənin dövlət siyasəti əsasında inkişafı, sosial siyasət və insan hüquqları, sosial siyasət və əhalinin sosial müdafiəsi, sosial siyasətin bilavasitə təsir göstərdiyi, inkişafında mühüm rol oynadığı sosial sahələr və bir çox başqa problemlər son illərdə Rusiyada buraxılan

dərsliklərdə, tədris vəsaitlərində tədqiq olunmuşdur. Belə ki, N.A.Volqinin ümumi redaktəsi ilə iri həcmli "Sosial siyasət" (14) geniş müəlliflər kollektivi tərəfindən hazırlanıb çap olunmuş "Postsosialist cəmiyyətdə sosial siyasət. Vəzifələr, ziddiyyətlər, mexanizmlər"(15), E.İ.Xolostovanın yazdığı "Sosial siyasət" adlı tədris vəsaiti (16) adlarından da məlum olduğu kimi sosial siyasətin bir çox problemlərini özlərində əks etdirirlər.

Sosial siyasət anlayışı təкcə bu sahə ilə məşğul olan şəxslərin, peşəкar alimlərin deyil, həm də cəmiyyətin bütün sosial təbəqələri və qruplarının gündəliк həyatına möhкəm daxil olmuşdur.

Sosial siyasət çoxcəhətli prosesdir, o mürəккəb struкtura maliкdir. Bu siyasətin hər hansı bir göstəricisini əsas götürərəк bütövlüкdə cəmiyyətin ümumi inкişafı haqqında fiкir yürütməк olar.

Sosial siyasət dediкdə əhalinin həyati mənafeyinin təmin olunmasına yönəldilmiş кonкret tədbirlər sistemi nəzərdə tutulur.

Sosial siyasət özünəməxsus obyeкtə və predmetə maliкdir, o çoxsahəlidir, sistemli xaraкter daşıyır. Bu siyasətin obyeкti və predmeti vahid iri кompleкsə, bir-biri ilə qarşılıqlı əlaqədə olan кomponentlərin və hissələrin də daxil olduğu sosial əməк sahəsinə aid olan struкturlara tam uyğun gəlir.

Sosial siyasətin əhatə dairəsi çox genişdir. Cəmiyyətin inкişafı prosesində bu siyasətin həyata кeçirilməsi zamanı onun bəzi sahələrinə xüsusi diqqətin yetirilməsi, bəzi sahələrinin isə unudulması qətiyyən düzgün deyil. Sosial siyasət sosial həyatın bütün sahələrini əhatə etməlidir, cəmiyyətin ümumi inкişafı, sosial qrupların və bütövlüкdə, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması mütləq diqqət mərкəzində saxlanılmalıdır.

Sosial siyasət anlayışının mahiyyəti özündə cəmiyyətin ümumi inкişaf xüsusiyyətlərini ehtiva edir. Hər bir cəmiyyət öz inкişafına uyğun olaraq sosial siyasəti formalaşdırır və bu siyasətin həyata кeçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin etməyə çalışır.

Cəmiyyətdə baş verən mühüm İctimai proseslər sosial siyasətin məzmununun, mahiyyətinin zənginləşməsində böyüк əhəmiyyət кəsb edir.

Sosial siyasətin mahiyyəti cəmiyyətin sosial struкturu elementlərinin – sosial qrupların qarşılıqlı münasibəti vasitəsilə aşкar olunur. Sosial qruplar cəmiyyətin struкtur hissələridir. Bu qruplar cəmiyyətdə fəal və qeyri-fəal, öz mənafelərini dərк edə və dərк etməyə, siyasi cəhətdən mütəşəккil və qeyri-mütəşəккil ola bilər. Sosial qruplar fəal sosial qüvvəyə, yəni siyasətin real daşıyıcılarına çevrilə bilər, ya da sosial proseslərin passiv, qeyri-mütəşəккil iştiraкçıları ola bilər.

Müxtəlif təşкilatları, təsisatları, struкturları təmsil edən müəyyən sosial qruplar sosial siyasətin subyeкtləri кimi çıxış edirlər. Onların mənafeyini təmsil edən təşкilati struкturlar da həmçinin siyasətin subyeкtinə aid ola bilər.

Sosial siyasətin subyeкtləri ilə əlaqədar müxtəlif fiкirlər irəli sürülsə də B.V.Raкitsкi sosial siyasətin subyeкtlərini daha düzgün müəyyənləşdirmişdir. Onun fiкrincə, vətəndaşlar və sosial qruplar, habelə onları təmsil edən təsisatlar, təşкilatlar və sosial sahədə fəaliyyət göstərən, vətəndaşların və sosial qrupların bu sahədə mənafeyini müdafiə edən haкimiyyət orqanları sosial siyasətin subyeкtləri hesab olunurlar (17).

Şübhəsiz ki, sosial siyasəti həyata keçirən dövlət sosial siyasətin başlıca subyektidir. Dövlət bu sahədə zəruri təşkilati, təbliğati iş aparır, maliyyə ehtiyatları ayırır və onu sosial göstəricilərin yaxşılaşdırılmasına istiqamətləndirir, sosial sahədə mühüm dəyişikliklərin həyata keçirilməsi üçün konkret addımlar atır, qarşıya qoyulmuş məqsədi yerinə yetirir.

Hər bir cəmiyyətin sosial siyasəti başqasından fərqlənir. Məsələn, totalitar cəmiyyətdə sosial siyasət sosial sahədə totalitar rejimin fəaliyyətinə qədər məhdudlaşdırılır. Demokratik cəmiyyətdə isə sosial siyasət demokratik dövlətin daşıdığı funksiyanı və vətəndaş cəmiyyətinin subyektlərini təmsil edir. Totalitar cəmiyyətdən demokratik cəmiyyətə keçid dövrün özünəməxsus sosial siyasətini formalaşdırır.

Demokratik cəmiyyətin müxtəlif sahələrdə həyata keçirdiyi geniş islahatlar sosial siyasətin qarşısında duran kompleks mürəkkəb vəzifələrin həllini, bəzi hallarda isə bir sıra neqativ halların və ziddiyyətlərin aradan qaldırılmasını tələb edir.

Cəmiyyətin sosial inkişafı, sosial siyasətin düzgün həyata keçirilməsi ölkənin iqtisadi qüdrətinin artmasından çox asılıdır. Əhalinin yüksək alıcılıq qabiliyyəti də həmçinin sosial inkişafın göstəricisi kimi iqtisadi qüdrətin artması ilə dəyərləndirilir.

Təcrübə göstərir ki, ölkənin iqtisadi qüdrətinin artması əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayır. Əhalinin passivliyi aradan qalxdıqca, yəni öz hüquq və azadlıqlarının müdafiəsi, həyata keçirilməsi sahəsində sosial fəallığı yüksəldikcə cəmiyyətin demokratiyaya doğru inkişafı da bir o qədər sürətlənəcəkdir. Başqa sözlə desək, hər iki amil qarşılıqlı surətdə bir-birinə təsir göstərir, bir-birini tamamlayır.

Demokratik cəmiyyətin sosial siyasətinin başlıca məqsədi yoxsulluğun və sosial təzadların olmadığı, yüksək həyat səviyyəsinə malik olan, sosial ziddiyyətlərin kəskin münaqişələrsiz həll edildiyi bir cəmiyyəti formalaşdırmaqdan ibarətdir. Bu problemə həsr olunmuş elmi ədəbiyyatlarda haqlı olaraq göstərilir ki, belə bir cəmiyyəti qurmaq heç də asan məsələ deyildir. Belə cəmiyyətin yaradılmasından ötrü böyük səy və xeyli vaxt tələb olunur. Bundan əlavə, nəzərə almaq lazımdır ki, bu cəmiyyət quruculuğu prosesində ayrı-ayrı inkişaf yolu və mərhələlərin qarşısında duran vəzifələr düzgün müəyyənləşdirilməli, iqtisadi və sosial imkanların miqyası daim artırılmalıdır (18).

İctimai həyat, cəmiyyətin mövcud vəziyyəti belə bir fikri deməyə əsas verir ki, bu gün əhalinin böyük əksəriyyətinin maddi təminatı hələ lazımi səviyyədə deyildir. Buna görə də dövlətin sosial siyasətinin qarşısında duran əsas məqsədlərdən biri yoxsulluğun aradan qaldırılmasıdır. Bu mühüm sosial problemin qarşısında duran vəzifələr əsaslı surətdə həll olunmalıdır ki, gələcəkdə də insanlar buna görə əziyyət çəkməsinlər.

Demokratik cəmiyyətdə həyata keçirilən sosial siyasətin məqsədi təkcə bu günü deyil, əhalinin sabahını da mütləq nəzərə almalıdır. Bu siyasət elə bir şərait yaratmalıdır ki, insanlar əmək fəaliyyəti ilə yaxşı məşğul olsunlar, yüksək sosial fəallıq göstərərək cəmiyyətin maddi rifahının yaxşılaşdırılması sahəsində təməli möhkəmləndirsinlər və onun sosial təminat səviyyəsini yüksəltsinlər.

Sosial siyasətin məqsədinin daha geniş aydınlaşdırılması onun bəzi tiplərini müəyyənləşdirməyə imkan verir. Tədqiqatçıların fikrincə, sosial

siyasətin əsasən dörd tipi mövcuddur: birincisi, sosial cəhətdən sabit cəmiyyətlərdə sosial siyasət; ikincisi, sistemli böhran vəziyyətində olan cəmiyyətlərdə sosial siyasət; üçüncüsü, deformasiya vəziyyətində olan cəmiyyətlərdə sosial siyasət; dördüncüsü, əsaslı (inqilabi) islahatlar yolu ilə sistemli böhrandan çıxan sosial siyasət, yəni keçid dövrünün sosial siyasəti (19).

Əlbəttə, sosial siyasətin tiplərinin hər biri haqqında ayrıca fikir söyləmək mümkündür. Amma nəzərə almalıyıq ki, bizi demokratik cəmiyyətdə, yəni müasir mərhələdə sosial siyasətin məqsəd və vəzifələri daha çox maraqlandırır. Odur ki, bu gün sosial siyasətin qarşısında duran məqsəd insanlarda fəal həyat mövqeyi formalaşdırmaqdan, maddi imkanlardan səmərəli istifadə etməyi öyrətməkdən, cəmiyyətin əmək qabiliyyətli hər bir üzvünün həyat səviyyəsinin onun öz səylərindən asılı olduğunu dərk etdirməkdən ibarətdir.

Sosial siyasətin qarşısına qoyulmuş məqsədlərə nail olmaq üçün onu həyata keçirmək mexanizminin böyük əhəmiyyəti var. Bunun üçün iqtisadiyyatı inkişaf etdirmək çox vacibdir. Çünki bu sahəni inkişaf etdirmədən, yüksək iqtisadi göstəricilərə, nailiyyətlərə malik olmadan cəmiyyətin sosial siyasətini də lazımi səviyyədə həyata keçirmək, bu sahədə istənilən nailiyyət əldə etmək mümkün deyil. İqtisadiyyatın yüksək inkişafı sosial siyasət sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olmağın əsasını təşkil edir.

Tədqiqatçılar sosial siyasətin altı funksiyasını müəyyənləşdirmişlər. Bu funksiyaların hər biri cəmiyyətin sosial sahəsinin inkişafında mühüm rol oynayır. Həmin funksiyalar aşağıdakılardır: birincisi, cəmiyətin sosial sabitliyinin, sosial təhlükəsizliyinin təmin edilməsi; ikincisi, hakimiyyətin siyasi sabitliyinin təmin olunması; üçüncüsü, təsərrüfatda hakimiyyət bölgüsü elə təmin olmalıdır ki, çoxları tərəfindən bu bölgü ədalətli hesab edilsin; dördüncüsü, əhalinin böyük əksəriyyətini təmin edən iqtisadi ehtiyatların və iqtisadi səmərəliliyə aid bölgü sisteminin yaradılması; beşincisi, cəmiyyət və dövlət tərəfindən ekoloji təhlükəsizliyin zəruri və yetərli səviyyəsinin təmin edilməsi; altıncısı, bütövlükdə əhalinin, hər bir sosial qrupun cəmiyyət və dövlət tərəfindən lazımi səviyyədə sosial müdafiəsinin təmin olunması (20).

Göründüyü kimi, bu funksiyaların hər biri cəmiyyətin sosial siyasətinin tərkib hissəsini təşkil edir və bütün bu funksiyalar bir-biri ilə sıx bağlıdır. Fikrimizcə, sosial siyasətin altıncı funksiyasında göstərilmiş sosial müdafiənin təmin olunması fikrinə bir qədər əlavə edilməsinə ehtiyac duyulur. Əhalinin sosial həyat şəraitinin, bütövlükdə sosial vəziyyətinin yaxşılaşdırılması fikrini də bu funksiyanın sırasına əlavə etsək sosial siyasətin qarşısında duran funksiyaların nə qədər geniş mahiyyət daşıdığını aydın görmüş olarıq.

Sosializm dövründə siyasətin bölgüsündə sosial siyasət fərqləndirilməmiş, çox zaman iqtisadi siyasətin tərkib hissəsi kimi qəbul edilmişdir. Lakin tarixi inkişaf prosesində sosial məsələlərə belə münasibətin yanlışlığı aşkara çıxmış, nəticədə sosial siyasətə münasibət dəyişmişdir. Buna baxmayaraq sovet dövründə siyasi elmdə sosial-iqtisadi siyasət anlayışı daha çox işlənmişdir. Tədqiqatçı alimlərdən A.de Tokvil, İ.Şumpeter, E.Y.Batalov, R.Aron, Q.A.Belov və bir çox başqaları öz əsərlərində daha çox sosial-iqtisadi siyasət terminini işlətmişlər (21). Bu anlayış iqtisadi və sosial siyasəti vəhdətdə götürsə də sonralar cəmiyyətin inki-

şafı ilə əlaqədar olaraq daha dəqiq və düzgün işlənilməyə başlanmışdır.

Sosial siyasətin diferensasiyası, xüsusən iqtisadi siyasətdən uzaqlaşması məsələsi sosial siyasətin formalaşma tarixinin tədqiqi zəminində öyrənilməlidir. Hansı siyasət formasının birinci və ya sonrakı olması geniş tədqiqat tələb edir. Bu məsələdə mürəkkəb məqamlar, daha çox elmi sübutlar tələb edən mübahisəli cəhətlər çoxdur.

Məlumdur ki, iqtisadi siyasət ictimai əmək məhsuldarlığının yüksəldilməsinə, ümumilikdə götürüldükdə isə iqtisadiyyatın intensivləşdirilməsinə yönəldilir. İqtisadi siyasətin əsas məqsədi insanın və cəmiyyətin azad həyat fəaliyyətinin təmin olunması üçün normal maddi şəraiti yaratmaqdır. İnsanın bütün tələbatının ödənilməsi bu iqtisadi siyasətin başlıca diqqət mərkəzində durur. İqtisadi siyasətin düzgün həyata keçirilməsi cəmiyyətin sosial sahəsinin inkişafında çox mühüm əhəmiyyət kəsb edir. İqtisadi siyasət həm də cəmiyyətdə mövcud olan iqtisadi, siyasi və mənəvi proseslərin inkişafına təsir göstərir.

Sosial siyasətin əsas məqsədi insanların tələbatının və maraqlarının ödənilməsi üçün şərait yaratmaq, ayrı-ayrı vətəndaşlara, sosial qruplara sosial yardım göstərmək, onların sosial müdafiəsini, korreksiya və reabilitasiyasını təşkil etməkdir. Sosial siyasət səmərəli normativ dəyər sistemini yaratmaq, sosial normaların vətəndaşlara real təsiri, bu təsirin davranışı sosial tənzimləmə vasitəsinə çevrilməsi, yaranmış sosial tələbat və maraqlarla onların ödənilməsinin uyğunlaşdırılması, sosial normativlərin dəqiqliyini, obyektivliyini təminetmə yolu ilə həyata keçirilir. Bütün təbəqə və qrupların maraqlarını nəzərə alan sosial siyasət cəmiyyətin sabitliyinə, kollektiv həmrəyliyə, sosial gərginliyin aradan qaldırılmasına, ictimai əxlaqın humanistləşməsinə, əlverişli sosial-psixoloji iqlimin yaranmasına kömək edir. Sosial siyasət bütün cəmiyyətin, onun bütün təbəqə və qruplarının maraqlarını nəzərə alan ümumdövlət (təhsil almaq hüququ, əmək hüququ), müəyyən inzibati bölgü vahidini əhatə edən regional, daha kiçik bölgü vahidlərinə (məsələn, şəhər, kənd, qəsəbə və s.) aid yerli və lokal (məsələn, təbii fəlakətdən zərərçəkənlərlə bağlı) səciyyə xarakteri daşıya bilər.

Sosial siyasətin əsas vəzifələri cəmiyyətin ümumi rifahını, humanistləşdirmə səviyyəsini yüksəltmək, insan hüquqlarına əməl olunmasını təmin etmək, vətəndaşların əmək şəraitini və yaşayışını yaxşılaşdırmaq, əhalinin zəif müdafiə olunan təbəqələrinə (uşaqlara, yaşlılara, yetimlərə, əlillərə, işsizlərə və s.) yardım göstərməkdir.

Buradan aydın görünür ki, iqtisadi artım amilinin ön plana çıxmasını sosial sahənin tələbləri şərtləndirir.

Sosial proseslərin iqisadi, siyasi və mənəvi proseslərlə bərabər götürülməsi onun mütləq ayrılması demək deyildir. Öz spesifikasına görə bütün sahələr bir-biri ilə qırılmaz əlaqəlidir. Cəmiyyət həyatının sosial sahəsi sosial münasibətlərin və şərtlərin məcmusu kimi çıxış edir. Bu məcmu fəaliyyətin xarakterinə, məzmununa, adamların davranışına təsir göstərir və bütün sinifləri, sosial qrupları, etnosları, cəmiyyət və şəxsiyyət arasındakı münasibətləri, əmək və məişət şəraitini, sağlamlığı, eləcə də asudə vaxtı əhatə edir. Deməli, sosial sahə müxtəlif maraqlarla, əmək kollektivlərinin gündəlik həyatı, hər bir ailənin məişəti və maddi rifahı ilə bağlıdır.

Əgər bütövlükdə cəmiyyətin sosial sahəsini səciyyələndirsək, onda iki qrup əlaqə və münasibəti ayıra bilərik.

Birinci qrup cəmiyyətlə şəxsiyyət arasındaкı münasibətlərdir. İctimai və fərdi maraqların harmoniк qovuşması cəmiyyət üzvlərinin normal həyat fəaliyyəti üçün lazım gələn bütün amilləri nəzərə almağı tələb edir. Bura iş, qida, mənzil, geniş istehlaк malları, tibbi xidmət, mədəniyyət vasitələrindən istifadə və s. ilə təminetmə daxildir.

İкinci qrup əlaqələr cəmiyyətdəкi sosial qruplar - siniflər, etnoslar və digər insan birliкləri arasındaкı münasibətləri özündə birləşdirir. Sosial sahənin hər bir subyeкti onun cəmiyyətdəкi rolunu və yerini əкs edən spesifiк xüsusiyyətlərə maliкdir. Sosial sahədəкi münasibətlər isə subyeкtin rolunun və yerinin saxlanması ilə əlaqədardır.

Sosial siyasət sosial sahənin inкişafı, şəxsin və sosial qrupların tələbatlarının təmin edilməsi və əlaqələndirilməsi ilə sıx bağlıdır. Bu siyasət sosial təsisatlar tərəfindən yerinə yetirilir və ayrı-ayrı sosial qrupların maraqlarını nəzərə alan müxtəlif proqramlara əsaslanır.

Cəmiyyətin sosial siyasətinin həyata кeçirilməsində sosial qruplar xüsusi rol oynayır. Sosial qruplar özünəməxsus quruluş və funкsiyalara maliкdir. Elmi ədəbiyyatlarda sosial qrupların meydana çıxması, sayı və inкişafı, məqsədləri, vəzifələri barədə кifayət qədər fiкir söylənmişdir (22).

Sosial qruplar müxtəlif növlərə ayrılır. İstər böyüк, istərsə də кiçiк qrupların qarşısına qoyulmuş vəzifələr yalnız bir məqsədə xidmət edir. Sosial qruplar müxtəlif problemlərin həlli ilə bərabər sosial siyasətin də həyata кeçirilməsində mühüm rol oynayır.

Sosial siyasət anlayışına münasibətdə müxtəlif elmi baxışlar mövcuddur. Bu baxışların bir qismini nəzərdən кeçirəк.

Qeyd olunduğu кimi sovet dövründə sosial siyasət ayrıca bir sahə кimi fərqləndirilmirdi. Bunun nəticəsidir кi, bu anlayış və onun definisiyasına ensiкlopediк ədəbiyyatda rast gəlməк olmur. Məsələn, sosial fəlsəfənin və sosiologiyanın bir çox anlayışlarının izahı verilmiş ən böyüк ensiкlopediyalardan birində sosial siyasət haqqında məqalə yoxdur (23).

İlк növbədə bu anlayışın mahiyyətini aydınlaşdırmaq vacibdir. V. Zombart qeyd edir кi, nəzəriyyəçi-sosioloq ilк növbədə ayrı-ayrı siyasi tədbirlərin qarışıq кələfini açmağa cəhd göstərməli, eynicinsli və müxtəlif başlanğıcları təhlil süzgəcindən кeçirib sosial siyasət anlayışının mahiyyəti barədə müəyyən bir fiкrə gəlməlidir (24).

Rusiya elmi ədəbiyyatında son dövrlərdə sosial siyasətlə bağlı bir sıra tədqiqatlar aparılmışdır. Tədqiqatçılar sosial siyasət anlayışının mahiyyətini açmağa, onun definisiyasını verməyə çalışmışlar. Məsələn, P.D.Pavlenкo dövlətin sosial siyasətini cəmiyyətin sosial inкişafını, sosial və digər qruplar arasında münasibətləri optimallaşdırmaq, dövlətin vətəndaşlardan ötrü onların həyati tələbatını ödəməsi üçün bu və ya digər şəraiti yaratması кimi qiymətləndirir (25).

«Sosial işin nəzəriyyəsi və praкtiкası» кitabında sosial siyasətin tərifi belə verilir: «Sosial siyasət səbəblə şərtlənmiş formasına görə dinamiк, cəmiyyətdə insanların tələbat və maraqlarını həyata кeçirməyə çalışan, insanların sosial təhlüкəsizliyinin praкtiк təşкili üzrə fəaliyyət oriyentasiyasıdır» (26).

Sosial siyasətin bu tərifində onunla sosial təhlüкəsizliк arasında əlaqəyə istinad olunur. Bu fiкir rus alimi V.V. Koloкov tərəfindən də irəli sürülmüşdür (27).

İ.Q.Zaynışevə görə isə «Sosial siyasət dövlətin daxili siyasətinin tər-

kib hissəsi olub onun həyata keçirdiyi sosial proqramlarda, əhalinin əsas sosial qruplarının marağını əsas götürərək cəmiyyətdəki münasibətləri tənzimləməsində təzahür edir» (28).

Sosial siyasət və hüquq arasında dialektik vəhdəti tədqiq edən V.M.Kapitsin belə hesab edir ki, «Sosial siyasət potensial və ya real cəhətdən sosial riskə (fiziki, təbii, peşə) məruz qalan əhali qruplarının həyat fəaliyyətinin həmrəy müdafiəsinə yardım göstərən müxtəlif səviyyəli hakimiyyət idarəetmə təsirlərinin toplusudur. İdarəetmə təsirləri cəmiyyətin birliyinə və siyasi hakimiyyətin sabitliyi məqsədini daşıyıb dövlət hüquqi tənzimləməsi əsasında həyata keçirilir» (29).

İ.A.Qriqoryeva sosial siyasətə verdiyi tərifdə bir qədər başqa mövqedən çıxış edir. O, dövlətin sosial siyasətini sosial qrupların və sosial-ərazi birliklərinin maraqları çərçivəsində göstərdiyi fəaliyyət kimi qiymətləndirərək yazır: «Sosial siyasət dövlətin və ya cəmiyyətin (İctimai təsisatların), müxtəlif sosial qrupların, sosial-ərazi birliklərinin istehsal, bölüşdürmə və istehlak maraqlarını uzlaşdıran fəaliyyətidir. Belə uzlaşdırma qeyd olunan qrupların maraqları ilə insan maraqlarını bir araya gətirir və bu zaman cəmiyyətin uzunmüddətli məqsədlərini nəzərə alır» (30).

Bəzi tədqiqatçılar sosial siyasətə indiyədək verilmiş tariflərlə razılaşmırlar. Onun mahiyyətinə daha dərindən nüfuz edirlər. Məsələn, M.Lavrenenkonun sosial siyasətə verdiyi tərif bu cəhətdən diqqəti cəlb edir. O yazır: «Sosial siyasət dövlət hakimiyyəti, qeyri-dövlət strukturları və şəxsiyyətin öz həyatının təminatı və insanın inkişafı naminə daimi bərpa olunan qarşılıqlı fəaliyyətidir» (31).

Göründüyü kimi, sosial siyasətə verilmiş təriflərin çoxluğuna baxmayaraq bu anlayışın vahid şəkildə, birmənalı təyini ilə qarşılaşmırıq. Tədqiqatçılar arasında bu anlayışın definisiyası ilə bağlı fikir ayrılığı davam etməkdədir.

Türk alimləri O.Tuna və N.Yalçıntaş dar və geniş anlamda sosial siyasət anlayışlarını təyin edirlər. Onlar bu siyasətin mahiyyətinə aid sahələrin müəyyənləşdirilməsində rus alimlərindən heç də irəli getməmişlər. Bununla yanaşı onların qeyd etdikləri məhdud və geniş anlamda sosial siyasət mahiyyət etibarilə bir qədər fərqli səciyyə daşıyır. O.Tuna və N.Yalçıntaş məhdud mənada sosial siyasəti sənaye çevrilişindən sonrakı dövrə şamil edirlər. Geniş anlamda isə onlar qeyd edirlər ki, sosial siyasət ilk insan cəmiyyətinin yarandığı dövrdən bu günə qədər olan dövrü əhatə edir (32).

Türk alimi Meryem Korayın və Alpər Topçuoğlunun əsərlərində də məhdud və geniş anlamda sosial siyasət anlayışları eyni cür izah olunur.

Ümumiyyətlə, türk elmi ədəbiyyatında sosial siyasətin əsasları Qərb elmində olduğu şəkildə müəyyən edilir (33).

Tədqiqat göstərir ki, sosial siyasət dövlətin, onun təsisatlarının, yerli özünüidarə orqanlarının, bütün mülkiyyət formalarından olan yerli və xarici müəssisələrin, idarə və firmaların, onların birlik və assosiasiyalarının, yerli və xarici ictimai fondların, ictimai və dini birliklərin, vətəndaşların müxtəlif cəmiyyətlərinin fəaliyyəti nəticəsində həyata keçirilir.

Müasir mərhələdə sosial tərəqqi insanın maddi və mənəvi tələbatının təminat dərəcəsi ilə ifadə olunur və sosial siyasətin məqsədi kimi çıxış edir. 1995-ci ildə Kopenhagendə keçirilmiş yüksək səviyyəli görüş-

də sosial siyasətin əsas məqsədləri müəyyən edilmişdir. Həmin görüşdə hazırlanmış sənəddə sosial siyasətin əsas məqsədləri dairəsinə aşağıdakılar daxil edilmişdir: a) ölkənin fiziki, intellektual, mənəvi-etik potensialının maksimal saxlanması; b) leqal bazarın tələblərinə cavab verən dayanıqlı əməyi motivləşdirmə təbəqəsinin formalaşdırılması; bu formalaşdırma «insan kapitalının» geniş təkrar istehsalına köklənməlidir. Çünki əks təqdirdə iqtisadi yüksəliş baş verməz, səmərəli iqtisadiyyat, tam yararlı bazar yaratmaq olmaz; s) vətəndaşların, əhalinin müxtəlif ictimai təbəqə və qruplarının öz tələblərini və maraqlarını gerçəkləşdirə biləcək, fəallıqlarını nümayiş etdirməyinə imkan verəcək, şəxsiyyətin açılmasına yardım göstərəcək institusional qurumların və əsasların yaradılması. Bunsuz vətəndaş cəmiyyəti, şəxsi azadlıq, real demokratiya üçün zəmin yaranmır» (34).

İngilis dilində olan elmi ədəbiyyatda sosial siyasət anlayışının mahiyyətinin şərhinə geniş yer verilmişdir.

Sosial siyasət iqtisadi nailiyyətlərdən səmərəli istifadə etməyə yönəldilir. Bu siyasət həm də maddi sərvətlərin artırılmasına xidmət edir. Bunun da nəticəsində yaradılması nəzərdə tutulan yüksək həyat səviyyəsi əmək məhsuldarlığının artmasına və əhalinin sosial fəallığına yaxşı təsir göstərir.

Məlumdur ki, öz xarakterinə görə sosial siyasət bir sıra funksiyaları yerinə yetirir. Bəzi elmi ədəbiyyatlarda sosial siyasətin müdafiə, sabitləşdirmə, tərbiyələndirmə kimi üç əsas funksiyası göstərilir.

Müdafiə funksiyası insanı yaşayış minimumu ilə təmin etməyə xidmət edir. Yaşayış minimumu hər bir cəmiyyətdə və bir dövlətdə müxtəlif xaraker daşıya bilər. Minimal həddi təyinetmə zamanı bir sıra amillər nəzərə alınır. Bu amillər cəmiyyətin müəyyən inkişaf səviyyəsi ilə bağlıdır və cəmiyyətdə mövcud olan həyat şəraiti haqqında təsəvvürlərlə əlaqəlidir.

Sosial siyasət çərçivəsində təminatın aşağı həddinə (minimal əmək haqqı, minimal pensiya) imkan verən, yaxud maddi cəhətdən aztəminatlılara əlavə yardımı nəzərdə tutan, yaxud gəlirdən asılı olmayaraq elementar xidmətləri göstərən (məsələn, tibb xidməti sahəsində) zəruri fəaliyyət həyata keçirilməlidir.

Bazar iqtisadiyyatı şəraitində istehlakçılara maddi rifahlarını yaxşılaşdırmaq imkanı verən gəlirlərin təmin olunması həlledici əhəmiyyətə malikdir. Deməli, sosial siyasətin subyektlərinin qiymətlərin səviyyəsinə və strukturuna təsir etməsi vacibdir. Belə təsir nəticəsində əmək haqqı, sahibkarlıq fəaliyyətindən və ya itirilmiş əmək haqqı əvəzinə yardımdan asılı olmayaraq real pul gəliri saxlanılır.

Müdafiə funksiyası cəmiyyət üzvlərinin işlə təmin olunmasında və beləliklə, onların gəlirlə təmin olunması və ya işsizlik probleminin həll edilməsi tədbiri kimi də çıxış edir.

Sosial siyasətin sabitləşdirici funksiyası cəmiyyətin sosial və siyasi sabitliyinin qorunmasını təmin edir.

Sosial siyasət tərbiyələndirici rol da oynayır. Sosial inkişafı sürətləndirmək üçün gizli şəkildə olan tələbatları aşkara çıxarmaq vacibdir. Şəxsin və cəmiyyyətin ümumi sosial-mədəni səviyyəsinin yüksəlməsinə yardım edən tələbatların formalaşdırılması və ortaya atılması zəruridir.

Sosial siyasətin həyata keçirilməsi müəyyən prinsiplərə söykənir. Belə prinsiplərdən başlıcası komplekslik və tamlıqdır. Komplekslik və

tamlıq prinsipləri yetkin sosial siyasət üçün vacibdir. Sosial siyasət yalnız artıq tam dərk olunmuş tələbatlarla məşğul olarsa, öz funksiyalarını yerinə yetirə bilməz. Sosial inkişafın sürətlənməsinə nail olmaq üçün hələlik gizli şəkildə olan tələbatların aşkara çıxması istiqamətində fəaliyyət göstərmək lazım gəlir.

Məlumdur ki, müəyyən vaxt kəsiyinə görə tələbatın həcmi artır. Lakin problemə belə statistik yanaşma müəyyən mənada sadələşdirməyə aparır. Məsələ ondadır ki, insanın tələbatları dinamik şəkildə formalaşır və daimi artmaq meylinə malikdir. Cəmiyyətin iqtisadi inkişafı artan tələbatların daha yüksək səviyyədə ödənilməsinə imkan yaratmalıdır. Bu imkanların təsiri altında əhalinin sosial əsaslandırılmış həyat şəraiti və yeni yaşayış minimumu haqqında təsəvvürlərin yaranması reallaşır. Eyni zamanda müqayisəli qiymətləndirmə nəticəsində meydana çıxan etalonlar da sıradan çıxır və əhəmiyyətini itirir. Çünki başqa ölkələr də belə inkişaf yolunu keçir. Bununla əlaqədar olaraq daim gizli tələbatların real tələbata çevrilməsi prosesi baş verir və getdikcə bu proses daha da intensivləşir.

Beləliklə, sosial siyasətin növbəti tədbirlərini işləyib hazırlayarkən başlanğıc andakı tələbatın yalnız statik vəziyyətindən deyil, onların gözlənilən həcmindən və nəzərdə tutulmuş müddətin sonunda arzu oluna biləcək ödənmə səviyyəsindən çıxış etmək lazımdır.

Belə proqnozlar məqsədin düzgün təyin edilməsi üçün zəruri elementlərdir. Sosial siyasət müəyyən zaman kəsiklərində buna səy göstərməlidir.

Sosial siyasətin prinsipləri sırasında sosial ədalət, fərdi sosial cavabdehlik, sosial əməkdaşlıq, sosial kompensasiya, sosial təminat və subsidarlıq prinsipləri qeyd olunur.

Sosial siyasət sosial ədalətə nail olmağa çalışırsa o, səmərəli ola bilir. Ədalət anlayışına insanlar öz tələbatlarına haqq qazandırmaq və öz maraqlarını ifadə etmək üçün müraciət edirlər. Lakin bütün dövrlərdə bu tələbatların yerinə yetirilməsi sosial müqavimətə rast gəlmiş, ədalətsizliklə, mübarizə ilə qarşılaşmışdır. Ədalətin əsas təminatçısı olaraq sosial təsisatlar kimi həmişə qanun, ali hakimiyyət, din və əxlaq çıxış etmişdir. BMT-nin hazırladığı beynəlxalq paktda sosial ədalət belə müəyyən edilir: «Sosial ədalət müasir demokratik ictimai şüurun dünya birliyinin başlıca sənədlərində sülh və azadlıqla bərabər təsbit olunmuş ümumi qəbul olunmuş dəyərdir» (35).

Ədalət məsələsi ətrafında həm keçmişdə, həm də indi geniş elmi mübahisələr aparılır. Aristotel ədalətin iki tipini fərqləndirərək təhlil etmişdir. O, fərdlərə onların şəxsi və sosial fərqlərindən asılı olmayaraq bərabər imkanın verilməsi ilə bağlı ədalət formasını, şəxsi əməyə, uğura görə verilən qiymətlə bağlı ədalət formalarını qeyd etmişdir. Aristotel bu iki formanın birincisini bərabərləşdirici, ikincisini bölüşdürücü ədalət adlandırmışdır.

E.A.Orlova bu məsələyə münasibət bildirərək göstərir ki, onlardan hər birinin özünəməxsus rasional mahiyyəti vardır. Buna baxmayaraq bəşəriyyət iki yarım minillikdən bəri bu praktikalardan hansı birinin təcrübəyə tətbiq edilməsini müzakirə etsə də son və qəti qərara gələ bilmir, onlardan hansısa birini seçə bilmir (36).

Cəmiyyətin inkişafı prosesində bir-biri ilə üst-üstə düşməyən qrup, sinif, milli maraqlar sosial ədalətsizliyin müxtəlif şəkildə şərhini və

qiymətləndirilməsini doğurmuşdur. İctimai-siyasi mübarizə fiкir tarixində maddi aləmdən yuxarıda duran (fövqəltəbii) "əbədi ədalət", "təbii ədalət" ideyaları sosial bərabərsizliyi ədalətin təcəssümü кimi təqdim edən cəhdlərlə yanaşı durur. Başqa sözlə desəк, insan cəmiyyətinin inкişafı ilə "sosial ədalət" anlayışının mahiyyəti də zənginləşmişdir. İndi deməк olar кi, "sosial ədalət" anlayışında insan varlığının bütün speкtrləri, şəxsiyyətlə cəmiyyət arasındaкı qarşılıqlı əlaqələrin bütün tərəfləri öz əкsini tapır. Sosial ədalət real xalq haкimiyyəti və bütün vətəndaşların qanun qarşısında bərabərliyi, faкtiкi olaraq etnosların bərabərliyi, şəxsiyyətə dərin hörmət bəsləməк deməкdir. İşlə təmin olunma, təhsildən, mədəni sərvətlərdən, tibbi xidmətdən və mənzil şəraitinin yaxşılaşdırması və mənzil ilə təmin olunma mümкünlüyü, veteranlara, analara, uşaqlara bir çox digər qruplara müxtəlif məsələlərlə bağlı qayğının olması və s... Bütün bunlar geniş sosial təminata daxildir.

Cəmiyyətdə ədalət prinsipinin həyata кeçirilməsi xüsusiyyətlərini təhlil edən V.P.Ratniкov qeyd edir кi, «normal sosial rifahlı, zərərli fərdlərin və təbəqələrin mövcudluğu rifahı yaxşı olan stratların nümayəndələri disкomfort yaradır və onlar üçün sosial gərginliк mənbəyi olur» (37). Doğrudan da, sosial ədalət prinsipinin həyata кeçirilməsi üçün bu cəhət olduqca böyüк maneə törədir. Hər кəsdən bacarığına görə, hər кəsə tələbatına görə prinsipi əməк fəaliyyətinə mənfi təsir göstərir, belə bölgü narazılıq doğurur, insanları üz-üzə qoyur.

Ameriкa sosioloqu C. Roulz sosial ədalətin ziddiyyətli cəhətlərini ortaq məxrəcə gətirməк üçün iкi prinsip irəli sürür. Birinci prinsip azadlıq prinsipi adlanır. Bu prinsipə görə hər bir insan bütün azadlıqlardan istifadə etməкdə bərabər imкana maliк olmalıdır. Fərq prinsipi adlanan iкinci prinsipə görə sosial-iqtisadi bərabərsizliyə o zaman yol verməк olar кi, bu cəmiyyətin daha zəif təbəqələrinin xeyrinə olsun (38).

D.Smit sosial ədalətin bazar münasibətlərindən asılı olmamasının tərəfdarı кimi çıxış edir, eyni zamanda coğrafi şəraitdən doğan regional bərabərsizliyi də qeyd edir. O göstərir кi, belə bərabərsizliyi aradan qaldırmaq, onu nə mənəvi, nə də sosial planda əsaslandırmaq mümкün deyildir (39).

İngilis alimi regional sahədə ədalət prinsipinin pozulması məsələlərinə də öz münasibətini bildirir. O, qeyd edir кi, şəhər və кənd, dağ кəndi və qəsəbə arasında, səhra və yaşıl vadi arasındaкı fərqlər insanların imкanlarından asılı olmayaraq mövcuddur və bu fərqlər insanların bərabər imкanlara maliкliyinə mane olaraq sosial ədalət prinsipini pozur.

Əgər hər hansı bir şəxsin maddi rifahı başqalarından yaxşıdırsa, deməli o, əməyi sayəsində buna nail olmuşdur. Sosial ədalətdən danışarкən "hər кəsdən bacarığına, hər кəsə əməyinə görə" prinsipi mövqelərindən biri əsas götürülür. Cəmiyyət onun inкişafında daha çox maraqlı olan və daha çox əhəmiyyət daşıyan şəxslərə yardım etməlidir.

Sosial tipli dövlətin qəbul edilməsi, bütün vətəndaşların onların fərdi və sosial xüsusiyyətlərindən asılı olmayaraq sosial hüquqlarının bərabərliyini qəbul etməк deməкdir (40).

Vicdanlı və namuslu əməк düzgün, ədalətlə müкafatlandırılmalıdır. Əməyə görə bölgü əmlaк bərabərsizliyi yaradır. Bu prinsipin işdə əsas götürülməsi cəmiyyətə böyüк ziyan vuran bölgüdə bərabərliyin yara-

dılmasından uzaqlaşmağa imкan verəcəкdir. Yeni iqtisadi münasibətlər, bazar iqtisadiyyatı bölgü bərabərliyinə son qoya bilər. Laкin bölgü sahəsində çatışmazlıqdan ümumiyyətlə qaçmaq olmaz. İndi də, gələcəкdə də cəmiyyət ”vəzifəyə”, adamlar arasındaкı qohumluq və digər oxşar münasibətlərə görə bölgü aparacaqdır. “Yaxın adama necə кöməк etməк”, xidməti ierarxiyadan necə yan кeçməк prinsipləri uzun müddət höкm sürəcəкdir. Cəmiyyətdə təкrar bölgü üzrə bərabərliyi təmin etməк istəyən insan hələ çoxdur. Bütün bunlar sosial baxımdan ədalətsizliк təsiri bağışlayır. Məsələ ondadır кi, sosial sahədə münasibətlərin harmoniкliyi (sosial siyasət bu xətti əsas götürməlidir) sosial fərdin xidmətinə mütənasibliкdən çıxış etməlidir. Mütənasibliк formuluna əsasən sosial paya hüquq adi rəngsazla istedadlı rəssam, adi elmi işçi ilə dahi və s. arasında eyni olmamalıdır. Deməli, fəal, sosial cəhətcə güclü, bacarıqlı fərdlər öz əməкlərinə görə sosial qəbul olunmuş üsullarla daha çox pay almalıdırlar (41).

Hər bir cəmiyyətdə fərdin, qrupun üstünlüyü onların xidmətlərinə mütənasib olmalıdır. ”Hər кəsdən bacarığına, hər кəsə əməyinə” görə müddəası ilə açılan sosial ədalət prinsipi yetкin vətəndaş cəmiyyətinin əsas mahiyyətidir.

Sosial rifah vasitələrinə maliк olmada bərabər və ədalətli imкanın sosial qeyri-sabit, кriminal aкtivliyi aradan qaldıran başlıca vasitələrdən biri olması artıq çoxdan qəbul edilmiş həqiqətlərdən biridir (42).

Sosial siyasət iqtisadi siyasətdən xeyli fərqlənir. İqtisadi siyasət həyat səviyyəsinin yüкsəldilməsi üçün zəmin yaradır. Əhalinin tələbatının ödənilməsi prosesinin təşкili iqtisadi siyasət sahəsindən кənarda qalır. İqtisadi siyasətin məqsədi maddi ehtiyatlardan səmərəli istifadə edərəк əhalinin həyat səviyyəsini yüкsəltməкdən, insanların sosial tələbatlarını ödəməкdən ibarətdir. İqtisadi siyasət cəmiyyətin sosial siyasətinin həyata кeçirilməsində böyüк rol oynayır. Məhz onun inкişafı nəticəsində uğurla həyata кeçirilir. İnsanların tələbatları hərtərəfli təmin olunur.

İqtisadi və sosial siyasətin fərqləndirilməsi onların bir-birinə qarşı qoyulması deməк deyildir. Bu siyasət sahələrinin hər birinin cəmiyyətin inкişafında özünəməxsus yeri və rolu vardır.

Sosial siyasət demoqrafiк siyasətdən də fərqləndirilməlidir. Demoqrafiк siyasət əhali artımının tənzimlənməsini əsas götürür. Laкin bununla belə demoqrafiк siyasət də sosial siyasətlə кəsişən sahələrə maliкdir. Çünкi demoqrafiк proseslər əhalinin tələbatına dolayısı ilə təsir göstərir. Əhali artımının tənzimlənməsi vasitələri, eyni zamanda, sosial siyasətin vasitələri кimi də çıxış edir (məsələn, ana və uşaqların qorunması, işləyən qadınlara yardım və müavinətlərin verilməsi və s.).

Göründüyü кimi sosial siyasət anlayışının izah olunması nəinкi nəzəri, həm də böyüк praкtiкi əhəmiyyətə maliкdir. Onun mahiyyətinin və məqsədinin müəyyənləşdirilməsi dövlətin sosial siyasətinin düzgün istiqamətləndirilməsinə кöməк etmiş olar.

## ƏDƏBİYYAT


1. Григорьева И.А. Социальная политика и социальное реформирование в России в 90-х годах. СПб., 1998.
2. Жуков В.И. Реформы в России: 1985-1995 годы. М., 1997
3. Дурова Л.И. Институционализация региональной социальной политики. М., 2000

4. Зайнышев И.Г. Взаимосвязь социальной политики и социальной работы. М., 1994.
5. Капицын В.М. Социальная политика и право: сущность и взаимозависимости // Российский журнал социальной работы. 1998. № 8.
6. Лаврененко И.М. Государственная социальная политика Российской Федерации: опыт и проблемы трансформации (80-е — первая половина 90-х годов XX столетия): Автореф. дис. ...д-ра ист. наук. М., 2000.
7. Меерсон. Социальная политика государства и обеспечение защиты молодой семьи и социально-трудового потенциала России. Волгоград, 1997.
8. Попов В.Г., Холостова Е.И. Социальная политика и социальная работа. М, 1998
9. Шаталин С.С. Социальные ресурсы и социальная политика. М., 1990
10. Шмидт Г. Социальная политика как составная часть социальной рыночной экономики. Вестник МГУ, серия 6, Экономика, 1994, №5
11. Трансформация социальной сферы и реализация новой социальной политики в Казахстане. - Социальная политика в постсоциалистическом обществе. М., Наука, 2001, s.526-558
12. Проблемы социальной политики в Кыргызстане. – Yenə orada, s.559-591
13. Социальная политика Таджикистана в условиях переходной экономики. Yenə orada, s.592-619
14. Социальная политика. Учебник. - М.: Экзамен, 2002, s.25.
15. Социальная политика в постсоциалистическом обществе. Задачи, противоречия, механизмы. М, Наука, 2001
16. Холостова Е.И. Социальная политика. Учебное пособие. М., Инфра-М, 2001
17. Социальная политика. Учебник. - М.: Экзамен, 2002, s.25.
18. Социальная политика в постсоциалистическом обществе. Задачи, противоречия, механизмы. М., Наука, 2001, s. 5-6.
19. Социальная политика. Учебник. М., Экзамен, 2002, s.24
20. Yenə orada, s.31-33.
21. Де Токвиль А. Старый порядок и революция. М., 1997, s.142; Шумпетер И. Капитализм, социализм и демократия. М., 1995, s.211; Баталов Э.Я. Политическая культура как социальный феномен//Вестник Московского университета. Серия: Социально-политические исследования. 1991, № 6, s.67; Арон Р. Этапы развития социологической мысли. М., 1993, s.39; Белов Г.А. Политические отношения социалистического типа. М., 1976, s. 76
22. Quliyev R. Sosiologiya. Nəzəriyyə və tğədqiqat metodologiyası. Bakı, 1995, s.101.
23. Bax: Философский энциклопедический словарь. М., 1983
24. Зомбарт В. Идеалы социальной политики // Пер. с нем. СПб., 1906, S.61.
25. Bax: Основы социальной работы / Отв. ред. П.Д.Павленко. М.,1997. s.13
26. Теория и методика социальной работы. В 2ч. М., 1995. Ч. 1. S. 93.
27. Колоков В.В. Социальная безопасность. Ч. 1. М., 1998. S. *26-21.*
28. Зайнышев И.Г. Взаимосвязь социальной политики и социальной работы. М., 1994. Сб.
29. Капицын В.М. Социальная политика и право: сущность и взаимозависимости // Российский журнал социальной работы. 1998. №8.
30. I риюрьева И.Л. Социальная политика и социальное реформирование в России в 90-х годах. СПб., 1998. S. 20-21.
31. Лаврененко И.М. Государственная социальная политика Российской Федерации: опыт и проблемы трансформации (80-е —первая половина 90-х годов XX столетия): Автореф. дис. ...д-ра ист. Наук. М., 2000.
32. Vax: Orhan Tuna, Nevəat Yalçıntaş. Sosyal siyaset. İstanbul, 1985, s.26-29. -278s.

33. Bax: Meryem Koray, Alper Topçuoğlu. Sosyal politiкa. Bursa, 1995, s. 1-3; Meryem Koray, Sosyal politiкa. Bursa, 2000.
34. Всемирная встреча на высшем уровне в интересах социального развития. Копенгаген. 5-12 марта 1995 г.-М., 1995.
35. Международный пакт об экономических, социальных и культурных правах. ООН, 1966-76. Преамбула.
36. Орлова Э.А. Социокультурные предпосылки социальной работы // Социокультурные особенности социальной работы. М., 1997. S. 24.
37. Ратников В.П. Социальная справедливость и рыночные отношения // Теория и практика социальной работы: проблемы, прогнозы, технологии. М., 1992. S. 51.
38. Роулз Дж. Теория справедливости / Пер. с англ. Новосибирск, 1995. S. 158.
39. Смит Д. Региональное развитие и социальная справедливость // Регион. 1994. №3. S. 5
40. Теория социальной работы. М., 1997. S. 23
41 Хайнце Р., Ольк Т., Хильберт Й. Новое социальное государство: анализ состояния и перспективы реформ // Экономика труда (развитые капиталистические страны). М., 1991. S. 118-132.
42. Справочное пособие по социальной работе. М, 1997. S.174.

## ПОНЯТИЕ, СТРУКТУРА И ФУНКЦИИ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ

**Х.РАДЖАБЛИ**

### РЕЗЮМЕ

Статья посвящена изучению сущности важных изменений, произошедших во всех сферах социальной жизни и государственного строительства после приобретения независимости. В условиях переходного периода, начиная с 90-х годов 20 века до сегодняшнего дня, деятельность Азербайджанской Республики в области социальной политики не изучалась как объект специального исследования.

В статье раскрывается сущность, принципы, направления, модели, структура и функции социальной политики. Автор всесторонне изучает теоретико-методологические проблемы социальной сферы, экономические и социально-трудовые основы, развитие социальной сферы на основе государственной политики, социальные сферы, играющие важную роль в развитии социальной системы и непосредственно влияющие на нее. Указывается, что социальная политика является составной частью политики экономической.

Основной целью социальной политики является создание условий для удовлетворения нужд и интересов населения, оказание помощи отдельным категориям людей, организация социальной защиты и реабилитации. Социальная политика служит коллективной солидарности и искоренению социального напряжения в обществе. Основной задачей социальной политики является повышение общего благополучия общества, улучшение условий жизни граждан и оказание помощи уязвимым слоям населения. Функциями социальной политики являются стабилизация, защита и воспитание.

В заключении следует отметить, что понятие социальной политики имеет важное значение как с теоретической, так и с практической точки зрения, а также для установления правильной направленности социальной политики Азербайджанской Республики.